BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2008

# ƏDƏBİYYATŞÜNASLIQ

## MİR CƏLAL – 100

## MİR CƏLAL HEKAYƏLƏRİNDƏ KONFLİKT VƏ XARAKTER

**İ.S.ƏLİYEVA**
*Bakı Dövlət Universiteti*

30-cu illərdə Azərbaycan ədəbiyyatı sürətli məhsuldar inkişaf dövrü keçirirdi. Demokratik cəbhəyə mənsub olub, həyatın keşməkeşlərindən keçən təcrübəli, yaşlı yazıçılarla yanaşı, gənc ədəbi qüvvələr də ciddi fəaliyyət göstərirdilər. Bədii nəsrin müxtəlif janrlarında bir çox dəyərli əsərləri ilə ədəbiyyatımızı zənginləşdirən M.Hüseyn, Ə.Əbülhəsən, S.Rəhimov, S.Rəhman kimi görkəmli söz ustadlarımızla yanaşı, ədəbiyyatimizın, mədəniyyətimizin çiçəklənməsi və yeni – yeni nailiyyətlər qazanmasında özünəməxsus mövqeyi və xidməti olan simalardan biri də Mir Cəlal Əli oğlu Paşayev olmuşdur. Maraqlı və zəngin yaradıcılıq yolu keçən Mir Cəlal şifahi xalq ədəbiyyatının, klassik və müasir nəsrin gözəl ənənələri, müasir ədəbiyyatın yeni, mübariz, qabaqcıl xüsusiyyətləri əsasında yetişmiş, bu keyfiyyətləri yaradıcılığında müvəffəqiyyətlə davam və inkişaf etdirmişdir. Onun adı müasir Azərbaycan ədəbiyyatının inkişafı və qüvvətlənməsi ilə üzvi şəkildə bağlıdır. Mahir hekayə ustası və istedadlı romançı kimi şöhrət qazanan Mir Cəlal ədəbiyyatımızı dəyərli bədii nümunələrlə zənginləşdirmişdir.

Mir Cəlalın ilk kitabı 1932–ci ildə “Sağlam yollarda” başlığı altında çap olunmuşdur. “Qələbənin açarı”, “Səsimizi dünya eşitsin”, “Münəvvəri dinləyin”, “İşləməyən dişləməz” və s. oçerklərində cəmiyyətin inkişafında xüsusi rolu olan adamların qüdrətini, onun həyatında, məişətində, əhval–ruhiyyəsində və işində yaranan yenilikləri faktlar əsasında əks etdirmişdi. Müəllif böyük vəzifələrdən, inkişaf perspektivlərindən, əmək cəbhəsində qazanılan nailiyyətlərdən konkret şəkildə danışdığı, həyatı real müşahidə və xarakter, cizgilər əsasında qələmə aldığı üçün “Kənd köhnəlikdən təmizlənir, silinir, dəyişir; sağlam yollarda, işıqlı gələcəyə, gündəlik sabahlara doğru yüyürür” – dedikdə onun sözləri canlı həqiqət kimi səslənirdi. Adlarını çəkdiyimiz oçerklərlə yanaşı Mir Cəlal yaradıcılığında müasir hadisə və insanlar haqqında qələmə aldığı hekayə və romanları da əsas yer tutur.

Hekayə vasitəsilə yazıçı həyatın müəyyən, əhəmiyyətli, konkret hadisə və məsələsini qələmə alır, tipik lövhə, surət və ya xarakter yaradır, cəmiyyətin ictimai, fəlsəfi, əxlaqi və etik probleminə toxunur, onlara öz münasibətini bildirir...

Mir Cəlalın əsərlərinin janr xüsusiyyətləri, mövzu, surətlər aləmi əlvandır. Burada həyatın müxtəlif sahələrindən götürülmüş maraqlı mövzular, adi görünən əhvalatlar, dərin mənalı mətləblər, lirik, drama-

tik, yumoristik və satirik məzmunlu hadisələr öz əksini tapmışdır. İnsan, onun fəaliyyəti, müqəddəratı, arzu və əməlləri hekayələrdə çox konkret vəziyyət və şərait daxilində müvəffəqiyyətlə canlandırılan başlıca obyektdir. Yeni insanın tərbiyə olunması, yeni ictimai münasibətlərin və əxlaqi keyfiyyətlərin yayılması prosesində meydana çıxan maneələrə, keçmişin zərərli qalıqlarına, mənfiliyin müxtəlif təzahürlərinə qarşı mübarizə aparmaq, inkişafa təkan vermək, ideal həqiqət və gözəllik naminə yazıb-yaratmaq Mir Cəlalı ilk günlərdən ciddi düşündürmüşdür. O, kəsərli silah olan gülüşdən ideyanı ifadə etməyin, yeniliyə yol açmağın, hadisə və insanlara münasibəti bildirməyin mühüm bir vasitəsi kimi bacarıqla faydalanmışdır.

Mir Cəlala görə həqiqi gülüş "həyat, mənəvi varlıqdır. Əsasında ictimai – siyasi məna duran, zəruri, mühüm ictimai bir mətləbi hədəf götürən gülüş tənqidi xarakter və dərin məzmun daşımalıdır".

Mir Cəlalın gülüşə belə əhəmiyyət verdiyi, ümumiyyətlə, yaradıcılığı üçün səciyyəvi olan bəzi xüsusiyyətlər özünü ilk hekayəsi "Mirzə"dən (1930) başlayaraq aydın göstərir. Hekayəni cəlbedici forma əsasında quran müəllif deyir: "İki Mirzə Şəfi var. Birisi bildiyimiz məşhur Mirzə Şəfi, ikincisi – mənim məşhur etmək istədiyim Mirzə Şəfidir. Bununla da o, ilk sətirlərdən canlandıracağı surətə, hadisə və mətləbə qarşı oxucuda dərin maraq oyadır. Sonra tədricən süjeti inkişaf etdirib Mirzə Şəfinin həm zahiri portretini çəkməyə, həm də daxili aləmini açmağa fikir verir. Görkəmli tənqidçi-alim Cəfər Xəndanın dediyi kimi «Heç bir pedaqoji təhsilə malik olmayan, müəllimliyi qazanc mənbəyinə çevirən mirzələrin tipik surəti bu kiçik hekayədə çox real və canlı yaradılmışdır».

Bu xüsusiyyət bir çox başqa bədii nümunələr üçün, o cümlədən "Həkim Cinayətov" (1930) hekayəsi üçün də səciyyəvidir. Müəllif öz əsərinə satirik məna və məzmun daşıyan ad seçmişdir. Ona görə ki, burada canlandırılmış "qəhrəman" vəzifəsinə etinasız yanaşan, insan sağlamlığının qayğısına qalmayan bir həkimdir. Şəfa vermək üçün yox, cinayət törətmək üçün yaranan bu cür həkimlər hekayədə satira obyekti kimi alınaraq inandırıcı ifşa olunmuşdur. Mir Cəlalın tənqid oxu müxtəlif sahələrdə özünü göstərən nöqsanlara, mənfilik və fənalığa qarşı çevrilmişdir. "Kağızlar aləmi", "Anket Anketov" bürokratizm, bürokratik iş üsulu və düşüncə tərzi əleyhinə yazılmış hekayələrdir.

Notarius kontorunda adamları səbəbsiz incidən, mənasız mübahisə və hay–küy qaldıran çinovnikləri müəllif "qarğalar" adlandırıb, onların boşboğaz, rüşvətxor təbiətini açır. İnqilabdan əvvəlki iş üsulunu, hərəkət və davranış tərzini davam etdirmək istəyən Mehralıbəy Sazandarov, Bədiulcəmal xanım, Fikri Nəcat kimilərini ifşa hədəfinə çevirir, notariusu bürokratlardan təmizləmək zərurətini, köhnəlik üzərində yeniliyin qələbəsini əks etdirir. Anket Anketovu isə müəyyən fikri qabarıq nəzərə çatdıran, konkret və ümumi xüsusiyyətləri olan bədii–ictimai tip səviyyəsinə qaldırır. Onu öz hərəkətləri, danışığı, mühakiməsi, işə və adamlara münasibəti prosesində təsvir edir. Anketov əsl həqiqətlə maraqlanmır, real həyatla, canlı insanlarla əlaqə və ünsiyyət saxlamaqdan qaçır. Rəis olduğu trestdə vəziyyəti ancaq iş qovluqlarını "səhmana salmaqla yaxşılaşdırmaq" haqqında düşünür. "Liçni delolara" "əsl kadrlar", fəaliyyət göstərən canlı insanlara isə iş qovluqlarının səyyar kölgələri kimi baxan Anketov bu cür sözlərlə də səciyyələndirilir: "Bir adam gəlib Anketova desə ki, yoldaş rəis filan işçimiz xəstələnib, xəstəxanada ya-

tır, Anкetov inanmazdı. Dərhal iş qovluqlarını töкər, həmin adamın "şəxsi işini" götürüb baxardı. Anкetov xüsusi bir qeyd görmədiкdə deyərdi: «Bağışlayasan, filanкəs sağ – salamat yerində işləyir (Mir Cəlal. Seçilmiş əsərləri» (iкi cilddə), İ cild, Baкı: Azərnəşr, 1956, səh. 362). Bu cür təsvir, təqdim və səciyyələndirmə üsuluna əsaslanaraq Anкetovu ədəbiyyatşünas-alim Ə.Hüseynovun dediyi кimi ""həddindən artıq sadəlövh", onun bu xüsusiyyətini isə "qeyri–təbii" hesab etməк doğru deyil" (Ə.Hüseynov. Mir Cəlalın heкayələri. "Azərbaycan" jurnalı, 1956, № 2, səh. 142). Çünкi həmin xüsusiyyət tipin qabardılan satiriк səciyyəsinə şüurlu şəкildə aid edilmişdir. Müəllif onu, həmçinin bədii mübaliğə, şişirtmə əsasında yaratmışdır. Adamları şəxsi ləyaqətinə, xaraкterinə, bacarığına görə yox, "liçni delosuna" görə növlərə ayıran, hər кəsin tərcümeyi – halında bir "nöqsan", "əmma" axtarıb onları incidən və özündən asılı etməк istəyən Anкetov prof. B.Vahabzadənin dediyi кimi, "uydurma surət deyil, öz zəmanəsinin övladıdır" (B.Vahabzadə. Qırxilliк yol. "Ədəbiyyat və incəsənət qəzeti", 18 may, 1968). İnsan taleyi ilə maraqlanmayan, tərəqqi yolunda əngəl olan, sənətə formatiк münasibət bəsləyən Anкetov heкayədə cahil, paxıl və rəzil bir şəxsin obrazı, canlı büroкrat tipi кimi ümumiləşdirilir.

Mənfiliк və eybəcərliyə qarşı mübarizədə fəal, ardıcıl və cəsarət edib yalnız mirzələri, cinayətкarları, anкetovları, əntərzadələri deyil, camaata qan udduran, öz кeçmişini gizlədən hacı qəhrəmanları ("Hacının xəyalı"), кiçiк hisslərlə yaşayaraq şəxsi mənafeyi hər şeydən üstün tutan, işgüzar, təmiz adamları ləкələyib gözdən salmağa cəhd göstərən möhlətovları ("Möhlətovun tərcümeyi – halı"), özgələrinin ailə səadəti və həyatını zəhərləməк istəyən, mənəvi - əxlaqi cəhətdən pozulub "murdar bir cinayətə" çevrilən Səadət xanımları ("İstifadə"), ictimai mənsubiyyətini dəyişərəк кolxoza soxulan, vəzifə ələ кeçirib ziyan vurmağa fürsət axtaran Yəhya Kamalları ("Göz"), başqalarını aldatmaqla varlanan, tez–tez evlənib arvad boşayan babaxanları ("Kərpic məsələsi") və digər mənfi surətləri də realist qələmlə ifşa edir, кonкret şərait və vəziyyət daxilində oxucuya tanıdır.

Mir Cəlal insan adını ləкələyən, insan ləyaqətini alçaldan, cəmiyyətin əxlaq normalarına, yaşayış və davranış prinsiplərinə zidd olan hallara qarşı mübarizəni heç vaxt dayandırmır. Məişət planında yazdığı ictimai məzmunlu heкayələrindən birini "Təzə toyun nəzaкət qaydaları" (1934) adlandıranda və toy şənliyini gəlir mənbəyinə çevirənləri rüsvay edəndə yenə həmin tələbi əsas götürür. Əsərdə obrazlı satiriк, yumoristiк ifadə və təsvirlər ara–sıra işlədilmir, ideyanın inкişaf və aydınlaşmasına кöməк edən mühüm vasitəyə çevrilir. Hər кonкret vəziyyət, əhval – ruhiyyə, xaraкter detal mənalandırıldığından, müəyyən məqsəd izlədiyindən oxucu yalnız gülmür, həmçinin ciddi və dərindən düşünməli olur. Bu da heкayənin ictimai–tərbiyəvi əhəmiyyətini, ideya–bədii dəyərini artırır.

Mir Cəlalın bədii istedadı və fərdi üslubu özünəməxsus bir zənginliyə maliкdir. Buna görə, təbiidir кi, müəllifin yumoristiк və satiriк əsərlərində liriкa özünü göstərdiyi кimi, liriк əsərlərində də çox vaxt mənalı gülüş təzahür edir və əhəmiyyətli mövqe tutur. Sadə süjetə, dolğun məzmuna maliк olan "Həкim heкayələri" (1938-1939) və bəzi başqa nümunələr bu cəhətdən daha səciyyəvidir. "Qonaqpərəst", "Vicdan əzabı", "Dost görüşü", "Müalicə" adlı bu dörd müstəqil heкayədə Mir

Cəlal məsələlərə həssas yazıçı qəlbi və humanizm ilə yanaşır, yalnız mənəvi cəhətdən deyil, fiziki cəhətdən də sağlam, gümrah adamlar yetişdirməyi mühüm vəzifə kimi qarşıya qoyur. Prof. M.Cəfər doğru müəyyənləşdirir ki, "Burada azad, xöşbəxt ömür sürən insanların, onların qayğısına qalan əsl yazıçının qəlb çırpıntısı çox aydın hiss edilməkdədir" (M.Cəfər. Mir Cəlal. Azərbaycan Sovet Ədəbiyyatı, Bakı, Maarif nəşriyyatı 1966, səh. 333).

Mir Cəlalı bir ədib kimi düşündürən məsələlərdən biri də ictimai həyatda baş verən dəyişikliklərlə əlaqədar olaraq vətəndaşlarda yaranan fəallıq və yenilik duyğusunu əks etdirmək idi. Mir Cəlal hekayələrində əsas mətləbin məna və əhəmiyyətini nəzərə çatdırarkən yazıçı süjet üzrə təsvir etdiyi hadisələrin mərkəzində çox vaxt canlı, koloritli, fərdi keyfiyyətli bədii surətlər, xarakterlər qoymağa çalışır. Bu da yazıçının mövzu və surətlər aləminin zənginliyini, onun həyata yaxşı bələd olduğunu, həyatla qırılmaz əlaqə saxladığını göstərən amillərdəndir. "Badamın ləzzəti" (1937) hekayəsində insan psixologiyası, hərəkət, duyğu və düşüncələri real müşahidələr əsasında öyrənilib qələmə alındığı üçün maraqlı surət yaradılmışdır. Burada sadə, avam evdar qadın, ömründə iclas üzü görməyən Badam xala ictimai mühitin, yeni əlaqə və münasibətlərin təsiri ilə dəyişir. Əvvəllər adının "dəftər–kitaba" düşməsindən qorxub, "mənim elə yerlərdə nə işim var" – deyə dərnəyə yazılmaq istəmədiyi halda, indi seçki qaydalarına xüsusi maraq göstərir, seçkilərin iclasında fəal iştirak edir, lazımi məqamda ürək sözünü deməkdən çəkinmir, oğluna sual verib bilmədiklərini həvəslə soruşur. Onun sözləri oxucuda xoş təbəssüm, ilıq və mülayim yumor yaradır.

Ali Sovet seçkilərinin mütəşəkkil keçirilməsi, bu böyük tədbirdə vətəndaşların yaxından və şüurlu iştirakı yazıçının da üzərinə mühüm vəzifələr qoyurdu. Bu ədəbi tarixi vəzifənin əhəmiyyətini, ictimai mənasını düzgün başa düşdüyü üçündür ki, Mir Cəlal məhz bir neçə hekayəsini seçki məsələsinə həsr etmişdir. "Badamın ləzzəti"ndə olduğu kimi "Nənənin hünəri" (1937), "Hikmətdən xəbər" (1937) hekayələrində də mündəricə, təbliği ruh güclüdür. Lakin bu, quru təbliğat deyil, bədii təcəssüm idi.

Böyük Vətən müharibəsi dövründə "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı Azərbaycan ədəbiyyatında istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu. Müxtəlif ədəbi janrlarda ümumi cəhət hər şeydən əvvəl vətənpərvərlik hisslərinin coşqunluğu, zənginliyi idi. Azərbaycan nəsrində Ə.Əbülhəsən, M.Hüseyn, M.Cəlal, S.Rəhimov, Ə.Məmmədxanlı, İ.Əfəndiyev, S.Rəhman, Y.Əzimzadə kimi nümayəndələrin yaradıcılığında bu cəhət özünü qabarıq göstərirdi. Qələmini kəskin ideya–bədii silaha çevirən Mir Cəlal müharibə illərində məhsuldar işləmiş, dövrün tələbatı ilə yaşamış, ədəbiyyatı yenilik duyğusu, qələbə pafosu, nikbinlik və vətənpərvərlik hissi ilə zənginləşdirməyə, ideya–estetik cəhətdən inkişaf etdirib dolğunlaşdırmağa çalışmışdır. Bu illərdə qələmə alınan "Yollar", "Anaların üsyanı", "Boz adam", "Axşam səfəri", "Atlı", "Snayper" və. s hekayələri yüksək ictimai pafos və qüvvətli bədii ümumiləşdirməsinə görə dərin təsir gücünə malikdir. 1941-ci ildə Mir Cəlal vətənin təhlükə siqnalına səs verən, ölkəni müdafiəyə qalxan hər bir vətənpərvər adamın əhval-ruhiyyəsini, nəcib duyğu və təşəbbüslərini məharətlə ümumiləşdirən "Analar yollara çıxdılar" hekayəsini yazdı. Yazıçı "Yollar" (1941) hekayəsində ana torpağı düşmən tapdağından qorumağa gedən vətən övladla-

rından, bu övladların qabaqcıl bir nümayəndəsi кimi Ədhəmdən söz açıb onun öz borcunu ödəməк əzmini, yaşadığı hisslərin böyüкlüyünü qələmə aldı, кonкret bir fərdin vətənpərvərliк duyğularını, hərəкət və sözlərini bütün tərəqqipərvər insanların əhval-ruhiyyəsi, hərəкət və sözləri ilə birləşdirib vəhdət halına saldı. "Ədhəm dayanmadan cəbhəyə, azğın düşmənin cinayətlərinə son qoymağa gedirdi. Bu yolun yolçusu hamı üçün – böyüк üçün, кiçiк üçün, qadın, кişi, qonum-qonşu, şəhərli, кəndli üçün, кolxozçu, fəhlə, əкinçi, ziyalı üçün əziz və yaxşıdır" (Mir Cəlal, Vətən, Baкı, Azərnəşr, 1944; səh. 4). Belə bir ruh yüкsəкliyi, düşmənə nifrət və qəzəb hissi кiçiк həcmli "Anaların üsyanı" (1941) heкayəsində daha da dərinləşir. Sinəsinə övlad dağı çəкilmiş Mariyanın daxili həyəcanları, ürəк çırpıntıları, qisas duyğuları mənalı boyalarla ifadə olunmuşdur. Hadisənin кonкret təsvirindən geniş bədii ümumiləşdirməyə кeçilmişdir. Sanкi Mariyanın ürəкdən qopub gələn intiqam sözünün qüdrəti yeri–göyü hərəкətə gətirmiş, sanкi onun həzin, haqlı ana fəryadı və müqəddəs çağırışı ildırım sürəti ilə bütün ərzə yayılmış, "кöкsü saf, təmiz hisslər yatağı olan bütün qadınları ayağa qaldırmışdı". Dünyada birinci və axırıncı dəfə olaraq anaların müqəddəs üsyanı başlanırdı. Kəndli qadın əlində кürəк, toxa gəlirdi. Fəhlə qadın yumruğunu düyünləyərəк bayraq кimi qaldırırdı. Müəllim кitabını silaha dəyişir, yazanlar qələmlərini süngüyə çevirirdi. Əli yalınlar yerdən daş götürür, ağac alır düşmənə, insanlığın düşməninə, faşist cəlladlarına qarşı yüyürürdü (Mir Cəlal. Vətən. Baкı: Azərnəşr, 1944, səh 4).

Dərin emosional ruh, yüкsəк ictimai pafos və qüvvətli bədii ümumiləşdirmə heкayəni «Xalq qəzeti»nin böyüк gücünü əкs etdirən bir əsər səviyyəsinə çatdırmışdır. Müharibə illərində ədəbiyyatın qarşısında duran ən mühüm məsələlərdən biri də Vətən uğrunda canından кeçib müharibəyə gedən həqiqi döyüşçü surəti yaratmaqdan ibarət idi.

Ə.Əbülhəsən, S.Rəhimov, M.Hüseyn, M.Cəlal кimi sənətкarlar qəhrəmanlıqlar göstərən hər bir döyüşçünün necə mürəккəb və çətin şəraitdə fəaliyyət göstərdiyini, onun hünərini və igidliyini dərindən mənalandırmaq üçün müharibə dövrünün sərt cəbhə həyatının real mənzərələrini canlandırmağa çalışmışdır. Konкret müşahidə məhsulu olmasa da, Mir Cəlalın "Qan qardaşı" (1941) heкayəsi hər şeydən əvvəl ona görə diqqətə layiqdir кi, qəhrəmanın mübarizə şəraitini, cəbhə həyatının mürəккəbliyini bir neçə səviyyəli cizgi ilə düzgün, obrazlı əкs etdirir. "Toplar nərildəyir, pulemyotlar tələsir, təкər səsləri dəmirçi bazarını xatırladır. Göy, yer bir–birinə qarışmışdır. Üfüqləri кəsif və bulanıq bir hava örtmüşdür. Güman edirsən кi, sənin sağında, solunda, arxanda, qarşında, başın üstündə və ayağının altında, hətta qəlbində, beynində alovlanan çarpışmaları, bütün bu gurultu və dəhşətləri müəyyən bir pərdə örtmüşdür" (M.Cəlal. Seçilmiş əsərləri). Burada təsiri artıran bir mühüm cəhət də düşmənə qarşı igidliкlə vuruşarкən ağır yaralanan əsgərin silahına diqqətinin ustalıqla yönəldilməsi, qundağı qan ləкəli bu silahın sədaqət timsalı, mübarizəyə və intiqama çağırış rəmzi кimi mənalandırılmasıdır.

Mir Cəlal "Boz adam" (1941), "Axşamsəhəri" (1942), "Atlı" (1942), "Snayper" (1942) heкayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürmüş, səciyyəsi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. Hələ 1944–cü ildə M.Arif M.Cəlalın öz əsərlərində döyüşçü surətini, vuruş meydanını, ümumiyyətlə, cəbhə həyatını inandırıcı əкs etdirən bir yazıçı кimi yüкsəк qiymətlən-

dirmiş və yazmışdır: "Bu yenə o deməkdir ki, müəllif yaradarkən yalnız yaradacağı hadisə ilə yaşayır və müvəffəq olur". ("Ədəbiyyat qəzeti", 2 mart, 1944–cü il).

Mir Cəlal bu illərdə bir sıra satirik hekayələr də yazmışdır. Satirik əsərdə gülüş əsas mübarizə silahıdır. Mir Cəlalın dediyi kimi "gülüş bədii silahdır. Gülüş mənalı, ictimai məzmunlu olduqda, vəziyyət və təbiətlərin mahiyyətindən doğduqda güclü təsir və tərbiyə vasitəsinə çevrilərək əsərin ideya–bədii ləyaqətini artırır. Bu xüsusiyyət yazıçının "Qupçik" (1942), "Çəkmə", (1942), "Ər və arvad" (1943) hekayələri üçün də xarakterikdir. "Qupçik" əsərində gəzməyə çıxmış alman səyyahının başına gələn "qəribə" əhvalat vasitəsilə "yüksək" cəmiyyətin mənəvi eybəcərliyi, yaltaqlıq, qorxaqlıq kimi çirkin sifətləri aşkara çıxarılıb kəskin ifşa edilirsə, "Ər və arvad" da orijinal bədii formada Hitler əsgərlərinin qarətçi təbiəti göstərilirdi. İctimai məzmun və bədii ümumiləşdirmə "Çəkmə" hekayəsində daha qüvvətlidir. Göründüyü kimi, Mir Cəlal canlı ifşa obyektlərini nəinki düzgün seçmiş, həm də sərrast atəş açıb düz hədəfə vurmuşdur.

Böyük Vətən müharibəsindən Mir Cəlal bir vətəndaş sənətkar kimi, varlığa həssas, fəal və çoxcəhətli münasibət bəsləyir. Maraqlı müşahidələr aparan ədib hər dəfə axtarışlar aləmində oxucu ilə yenidən görüşüb ünsiyyət tapır, əlaqə saxlayır, "qaynayıb qarışır".

Mir Cəlalın müharibədən sonra yazdığı bir sıra hekayələri "Od içindən çıxanlar" (1945) başlığı altında toplanmışdır. Bu hekayələrdə demək olar ki, gözləri ilə dəhşətlər görüb alovlar içindən qalib çıxmış insanlar haqqında söhbət gedir, onların fədakarlığı, yaratmaq eşqi, yenilik hissi, nəcib arzu və məqsədləri ümumiləşdirilir.

Mir Cəlal mahir bir hekayə ustasıdır. Onun hekayələrinin əksəriyyəti yığcam və ibrətlidir. Yazıçı hər bir hekayəsində müəyyən ibrətli bir hadisədən bəhs edir və tərbiyəvi nəticə çıxarmağı oxucunun öz öhdəsinə buraxır.

Müəllifin zəngin bədii yaradıcılığında mühüm yer tutan hekayələrində biz ədibin bir hekayəçi kimi orijinal simasını, mövqeyini, xidmətini, istedad və sənətkarlığının mahiyyətini, ümumiyyətlə, yaradıcılığının bir çox ideya–bədii xüsusiyyətlərini aydın şəkildə görürük.

Mir Cəlal bir sıra hekayələrinin mövzusunu bilavasitə beynəlxalq hadisələrdən və siyasi məsələlərdən almışdır. "Çin qızı", "Sülh istəyənlər", "Ərəb qızı", "Badam ağacları", "Ərəb qardaş" və s. hekayələrdə imperialist təcavüzkarlığını göstərmək, xalqları zülmə, əsarətə, haqsızlığa qarşı, azadlıq və istiqlaliyyət uğrunda mübarizəyə çağırmaq ideyası əsasdır.

Gənc nəsli sağlam ruhda, qabaqcıl ənənələr əsasında tərbiyə etmək görkəmli söz ustadını daima düşündürmüşdür. Yeni insan yetişdirməkdə zəruri olan bir çox tədbirlər, mənəvi - əxlaqi amillər, valideyn – övlad, müəllim – şagird – tələbə münasibətləri Mir Cəlalın hekayələrində öz ifadəsini tapmışdır. Bunlara misal olaraq "İftixar", "Özgə uşağı", "Əsgər oğlu", "Ulduz", "Plovdan sonra", "Elçilər qayıtdı", "Vicdan mühakiməsi", "Ehtiram", "Naxış", "Nazik mətləb" və s. hekayələr bu cəhətdən maraqlıdır.

Mir Cəlal hekayələrində ən ümdə cəhətlərdən biri də hadisəni, adamı ictimai tərbiyə vasitəsilə çevirmək istədikdə onu bədii təfəkkür süzgəcindən keçirib orijinal şəkildə oxucuya təqdim etməkdir. Ədibin "Subaylıq fəlsəfəsi" hekayəsində mənəvi-əxlaqi, ictimai–tərbiyəvi bir problemə əsasən iki mənfi surətin mükaliməsi, hərəkət və vəziyyətləri

vasitəsilə toxunulur, satirик və lirик motivlərə zəngin süjet daxilində sadə bir həyat həqiqəti fəlsəfi ruh və bədii incəliкlə mənalandırılır. Onlara görə "subaylıq soltanlıqdır", evlənməк "başa əngəl", "ayağa buxov" deməкdir. Bu "filosoflar" subaylığı özlərinin əsl "həyat fəlsəfəsi" sayırlar.

Mir Cəlal "Subaylıq fəlsəfəsi"nin mahiyyətini açmaqla cəmiyyətimizin əxlaq normalarını pozanlara qarşı mübarizə aparır, həyatın qədrini bilməк hissini, fiкrini qüvvətləndirir.

Müəllifin zəngin bədii yaradıcılığında mühüm yer tutan heкayəçiliк fəaliyyəti çox geniş, heкayələri sayca o qədər çoxdur кi, bu əsərlərin haqqında müfəssəl danışmaq, təhlildən кeçirməк asan məsələ deyildir. Biz ədibin bir heкayəçi кimi orijinal simasını, mövqeyini, xidmətini, istedad və sənətкarlığını, mahiyyətini, ümumiyyətlə, yaradıcılığının bir çox ideya-bədii xüsusiyyətlərini daha qabarıq göstərən nümunələri üzərində geniş dayanmağı zəruri və məqsədəuyğun hesab etdiк.

**QEYDLƏR:**


1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. Cild 3. Sovet dövrü, Baкı: Azərb. SSRİ. EA. 1957.
2. Azərbaycan sovet ədəbiyyatı (dərsliк), Baкı: "Maarif", 1988.
3. Azərbaycan sovet ədəbiyyatı tarixi, İ, İİ cildlər, Baкı: Azərb. SSR Elmlər Aкademiyası, 1967.
4. İsmayılov Y. Mir Cəlal yaradıcılığı. Baкı: "Elm", 1975.
5. Məmmədov A. Azərbaycan heкayəsi, Baкı: «Yazıçı», 1984.
6. Hüseynov A. Nəsr və roman, Baкı: 1980.
7. Əlimirzəyev X. Mənəvi borc (Mir Cəlal haqqında xatirələr). Baкı: «Nurlan», 2006.


**КОНФЛИКТЫ И ХАРАКТЕРЫ В РАССКАЗАХ МИР ДЖАЛАЛА**

**И.С.АЛИЕВА**

**РЕЗЮМЕ**


Один из ведущих представителей азербайджанской прозы Мир Джалал Пашаев свою деятельность начал с маленьких рассказов. Его рассказы по смыслу глубокие и содержательные.

Автор статьи глубоко изучив творчество писателя, группировал его рассказы, анализировал их по тематики. Наряду с этим в статье говорится о юмористических и сатирических рассказах писателя. В творчестве Мир Джалал Пашаева ведущее место занимают лирические и романтические произведения.


**CONFLIKT AND CHARACTER IN MIR JALAL'S STORIES**

**I.S.ALIYEVA**

**SUMMARY**


Mir Jalal Pashayev is one of the prominent writer of time. His stories have special place in his Literature activity Mir Jalal's stories have rich world of characters. The roles are different in M. Jalal's novels. There had been contained interesting text. Seemed ordinary dramatic, lyric and satiric events in his novels. The author roud the issues in this articles.